## “Baytarlıq xidməti və nəzarəti tədbirlərinə görə alınan xidmət haqqının məbləği”nin təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikası Prezidentinin “Baytarlıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2005-ci il 22 noyabr tarixli 316 nömrəli və “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 988 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Baytarlıq xidməti və nəzarəti tədbirlərinə görə alınan xidmət haqqının məbləği” təsdiq edilsin (əlavə olunur).

2. ~~Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.~~[1]

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 22 iyun 2021-ci il
№ 178

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2021-ci il 22 iyun tarixli 178 nömrəli
Qərarı ilə
**təsdiq edilmişdir.**

### Baytarlıq xidməti və nəzarəti tədbirlərinə görə alınan xidmət haqqının məbləği

| Sıra №-si | Baytarlıq xidməti və nəzarəti tədbirlərinin adı | Ölçü vahidi | Xidmət haqqı (manatla) |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| **1.** | **Ölkədə istehsal olunan və idxal edilən baytarlıq preparatlarının, yem və yem əlavələrinin istifadə üçün təqdim edilən seriyalarının (partiyalarının) aprobasiyası, sınağı, ekspertizası, qeydə alınması və keyfiyyətinin müəyyən edilməsi** | | |
| **1.1.** | **Baytarlıq preparatlarının, yem və yem əlavələrinin aprobasiyası** | | |
| 1.1.1. | baytarlıq preparatları, yem və yem əlavələrinin aprobasiyası üçün sənədlərin ekspertizası | 1 preparat | 750,00 |
| 1.1.2. | baytarlıq preparatlarının aprobasiyası üçün laborator və istehsalat sınağı | 1 preparat | 4450,00 |
| 1.1.3. | yem və yem əlavələrinin aprobasiyası üçün laborator və istehsalat sınağı | 1 preparat | 1400,00 |
| **1.2.** | **Baytarlıq preparatlarının, yem və yem əlavələrinin sınağı, ekspertizası, qeydə alınması** | | |
| 1.2.1. | baytarlıq preparatları, yem və yem əlavələrinin qeydiyyatı üçün sənədlərin ekspertizası | 1 preparat | 750,00 |
| 1.2.2. | baytarlıq preparatları, yem və yem əlavələrinin qeydiyyatı üçün laborator və istehsalat sınağı | 1 preparat | 500,00 |
| **1.3.** | **Baytarlıq preparatlarının, yem və yem əlavələrinin istifadə üçün təqdim edilən seriyalarının (partiyalarının) keyfiyyətinin müəyyən edilməsi** | | |
| 1.3.1. | xarici görünüşü və rəngi | 1 nümunə | 12,00 |
| 1.3.2. | təsiredici maddənin təyini (hər bir komponent üzrə) | 1 nümunə | 300,00 |

| | | | |
|---|---|---|---|
| 1.3.3. | nəmlik | 1 nümunə | 18,00 |
| 1.3.4. | vitaminlərin təyini (hər bir vitaminə görə) | 1 nümunə | 140,00 |
| 1.3.5. | pH göstəricisi | 1 nümunə | 14,00 |
| 1.3.6. | özlülük | 1 nümunə | 18,00 |
| 1.3.7. | sıxlıq | 1 nümunə | 18,00 |
| 1.3.8. | qablaşdırma vahidində kütlə miqdarının yoxlanılması | 1 nümunə | 18,00 |
| 1.3.9. | tabletşəkilli preparatların parçalanma vaxtının təyini | 1 nümunə | 18,00 |
| 1.3.10. | qablaşmada hermetikliyin (vakuumun) təyini | 1 nümunə | 18,00 |
| 1.3.11. | məlhəmlərin eynicinsliyinin yoxlanılması | 1 nümunə | 18,00 |
| 1.3.12. | preparatlarda köməkçi maddələrin təyini | 1 nümunə | 115,00 |
| 1.3.13. | elementlərin (S, Cu, Mg, Al, P, Zn) təyini (hər bir element üzrə) | 1 nümunə | 45,00 |
| 1.3.14. | bakterioloji (patogen və qeyri-patogen mikroorqanizmlər) göstəricilər (hər bir parametr üzrə) | 1 nümunə | 40,00 |
| 1.3.15. | preparatın sterilliyinin yoxlanılması | 1 nümunə | 35,00 |
| 1.3.16. | preparatın toksikliyinin (zərərsizliyinin) laboratoriya heyvanları üzərində yoxlanılması | 1 nümunə | 45,00 |
| 1.3.17. | mono- və assosiasiya edilmiş virus, bakterial və ibtidai orqanizmlərə qarşı vaksinlərin sterilliyinin və toksikliyinin (zərərsizliyinin) yoxlanılması (laboratoriya heyvanlarında) | 1 nümunə | 160,00 |
| 1.3.18. | mono- və assosiasiya edilmiş virus, bakterial və ibtidai orqanizmlərə qarşı vaksinlərin sterilliyinin və toksikliyinin (zərərsizliyinin) yoxlanılması (həssas heyvanlarda****) | 1 nümunə | 300,00 |
| 1.3.19. | mono- və assosiasiya edilmiş virus, bakterial və ibtidai orqanizmlərə qarşı vaksinlərin antigen aktivliyinin (həssas heyvanlarda) yoxlanılması | 1 nümunə | 440,00 |
| 1.3.20. | mono- və assosiasiya edilmiş virus, bakterial və ibtidai orqanizmlərə qarşı vaksinlərin antigen aktivliyinin (laboratoriya heyvanlarında) yoxlanılması | 1 nümunə | 250,00 |
| 1.3.21. | polivalent vaksinlərin zərərsizliyinin yoxlanılması | 1 nümunə | 560,00 |
| 1.3.22. | polivalent vaksinlərin immunogenliyinin yoxlanılması | 1 nümunə | 940,00 |
| 1.3.23. | mono- və assosiasiya edilmiş virus, bakterial və ibtidai orqanizmlərə qarşı vaksinlərin immunogen aktivliyinin (laborato-riya heyvanlarında) yoxlanılması | 1 nümunə | 480,00 |

| | | | |
|---|---|---|---|
| 1.3.24. | mono- və assosiasiya edilmiş virus, bakterial və ibtidai orqanizmlərə qarşı vaksinlərin immunogen aktivliyinin (təbii həssas heyvanlarda) yoxlanılması | 1 nümunə | 600,00 |
| 1.3.25. | xam protein analizi | 1 nümunə | 30,00 |
| 1.3.26. | xam yağ analizi | 1 nümunə | 24,00 |
| 1.3.27. | xam sellüloza analizi | 1 nümunə | 18,00 |
| 1.3.28. | mexaniki qarışıqların təyini | 1 nümunə | 10,00 |
| 1.3.29. | enzimlərin təyini | 1 nümunə | 80,00 |
| 1.3.30. | xam külün təyini | 1 nümunə | 18,00 |
| 1.3.31. | amin turşularının miqdarı (hər bir parametr üzrə) | 1 nümunə | 150,00 |
| 1.3.32. | pestisidlərin miqdarı, antibiotik qalıqlarının miqdarının təyini (hər bir parametr üzrə) | 1 nümunə | 140,00 |
| 1.3.33. | nişastanın təyini | 1 nümunə | 24,00 |
| 1.3.34. | şəkərin təyini (hər bir parametr üzrə) | 1 nümunə | 45,00 |
| 1.3.35. | mikotoksinlərin təyini (hər bir parametr üzrə) | 1 nümunə | 140,00 |
| 1.3.36. | metal-maqnit qarışığının təyini | 1 nümunə | 12,00 |
| 1.3.37. | vitaminlərin təyini (hər bir vitaminə görə) | 1 nümunə | 24,00 |
| 1.3.38. | turşuluğun təyini | 1 nümunə | 18,00 |
| 1.3.39. | nitrat ($NO^{3-}$) və nitrit ($NO^{2-}$) ionlarının miqdarı (hər bir parametr üzrə) | 1 nümunə | 24,00 |
| 1.3.40. | yem əlavələrində daşıyıcı maddələrin təyini | 1 nümunə | 30,00 |
| 1.3.41. | enerji dəyərinin hesablanması | 1 nümunə | 30,00 |
| **2.** | **Heyvanların identikləşdirilməsi (kodlaşdırılması) və heyvanlar üçün yem və bioloji preparatlar istehsalı obyektlərinin qeydiyyatı xərcləri** | | |
| **2.1.** | **Heyvanların identikləşdirilməsi (kodlaşdırılması)** | | |
| 2.1.1. | iribuynuzlu heyvanlar | 1 baş | 2,00 |
| 2.1.2. | xırdabuynuzlu heyvanlar və donuzlar | 1 baş | 1,00 |
| 2.1.3. | atlar və dəvələr | 1 baş | 6,00 |
| 2.1.4. | damazlıq quşlar | 1 partiya | 5,00 |
| **2.2.** | **Heyvanlar üçün yem və bioloji preparatların istehsalı obyektlərinin qeydiyyatı** | | |
| 2.2.1. | sahibkarlıq subyekti | 1 obyekt | 1150,00 |
| **3.** | **Heyvanların dehelmintizasiyası, obyektlərin dezinfeksiyası, dezinseksiyası, deratizasiyası (məcburi dezinfeksiya, dezinseksiya və deratizasiya və dövlət sərhədinin buraxılış məntəqələrində nəqliyyat vasitələrinin dezinfeksiyası istisna olunmaqla) və heyvan mənşəli məhsulların və xammalın baytarlıq (baytarlıq-sanitariya) ekspertizası** | | |
| **3.1.** | **Heyvanların parazitlərə qarşı işlənməsi (qırxılması, duş qurğusunda çimizdirilməsi) və dehelmintizasiyası** | | |
| 3.1.1. | iribuynuzlu heyvanlar | 1 baş | 2,00 |
| 3.1.2. | xırdabuynuzlu heyvanlar | 1 baş | 2,00 |
| 3.1.3. | donuzlar | 1 baş | 1,00 |
| 3.1.4. | itlər və pişiklər (sahibsiz itlər və pişiklər istisna olmaqla) | 1 baş | 30,00 |
| 3.1.5. | vəhşi heyvanlar, sirk və zoopark heyvanları | 1 baş | 50,00 |
| **3.2.** | **Dövlət baytarlıq nəzarəti obyektlərinin dezinfeksiyası, dezinseksiyası və deratizasiyası** | | |
| **3.2.1.** | **heyvan mənşəli məhsulların və xammalın dezinfeksiyası** | | |

| | | | |
|---|---|---|---|
| 1. | bir partiya yumurta 1000 (daxil olmaqla) ədədə qədər | 1 əməliyyat | 5,00 (və hər əlavə 10 ədəd üçün 0,05) |
| 2. | bir bağlama yun | 1 əməliyyat | 5,00 |
| **3.2.2.** | **yoluxucu xəstəliklərin törədicilərinin keçməsinə səbəb ola bilən nəqliyyat vasitələrinin dezinfeksiyası** | | |
| 1. | minik avtomobilləri | 1 ədəd | 5,00 |
| 2. | yük avtomobillərinin yük götürən sahəsi | 1 $m^2$ | 0,60 |
| **3.2.3.** | **vaqonların və gəmilərin dezinfeksiyası (dərman vasitəsindən, dozasından və sahəsindən asılı olaraq)** | | |
| 1. | 1-ci kateqoriya (yoluxucu olmayan heyvan xəstəlikləri ilə əlaqədar) | 1 $m^2$ | 2,00 |
| 2. | 2-ci kateqoriya (yoluxucu xəstəliklərin siyahısına daxil edilmiş xüsusi təhlükəli heyvan xəstəlikləri istisna olmaqla, digər yoluxucu xəstəliklər ilə əlaqədar) | 1 $m^2$ | 2,50 |
| 3. | 3-cü kateqoriya (yoluxucu xəstəliklərin siyahısına daxil edilmiş xüsusi təhlükəli heyvan xəstəlikləri ilə əlaqədar) | 1 $m^2$ | 3,00 |
| **3.2.4** | **obyekt, bina və ərazilərin dezinfeksiyası, dezinseksiyası və deratizasiyası** | | |
| 1. | baytarlıq sahəsində fəaliyyət göstərən obyektlərin dezinfeksiyası (heyvan mənşəli məhsulların istehsalı, emalı, saxlanılması yerləri və digər obyektlər) | 1 $m^2$ | 0,60 |
| 2. | heyvan mənşəli məhsulların və xammalın istehsalı, tədarükü, saxlanılması, emalı, satışı və ya istifadəsi üçün nəzərdə tutulan binaların dezinfeksiyası (heyvan mənşəli məhsullar və xammalın idxalı, ixracı və ölkədaxili hər hansı daşınması zamanı yük anbarı, yükvurma, yükboşaltma vasitələri və yük platformaları) | 1 $m^2$ | 0,40 |
| 3. | baytarlıq sahəsində fəaliyyət göstərən obyektlərin insektisidlərlə dezinseksiyası | 1 $m^3$ | 0,20 |
| 4. | baytarlıq sahəsində fəaliyyət göstərən obyektlərin gəmiricilərə qarşı deratizasiyası | 1 $m^3$ | 0,20 |
| **3.3.** | **Heyvan mənşəli məhsulların və xammalın baytarlıq (baytarlıq-sanitariya) ekspertizası** | | |
| 3.3.1. | orqanoleptik müayinə | 1 nümunə | 12,00 |
| **4.** | **Profilaktikası, diaqnostikası və ləğvi dövlət büdcəsindən maliyyələşdirilən heyvanların xüsusi təhlükəli xəstəlikləri istisna olmaqla, digər xəstəliklərin profiliktikası, diaqnostikası, müalicəsi və ləğvi** | | |
| **4.1.** | **Yoluxucu xəstəliklərin siyahısına daxil edilmiş xüsusi təhlükəli heyvan xəstəlikləri istisna olmaqla, digər xəstəliklərin profilaktikası (kliniki baxış və termometriya)** | | |
| **4.1.1.** | **iribuynuzlu və təkdırnaqlı heyvanlar, itlər və pişiklər** | | |
| 1. | ümumi kliniki baxış*, lazım olduqda termometriya | 1 baş | 5,00 |
| 2. | tənəffüs və həzm orqanlarının müayinəsi | 1 baş | 4,00 |

| | | | |
|---|---|---|---|
| 3. | nəbzin və ürək döyüntüsünün ölçülməsi | 1 baş | 2,00 |
| 4. | ön və arxa ətrafların, dırnaq tacının, dırnaqarası nahiyənin müayinəsi | 1 baş | 10,00 |
| 5. | laborator müayinələr üçün qan və digər nümunələrin götürülməsi (çatdırılması və laboratoriya müayinəsi xərci nəzərə alınmadan) | 1 baş | 10,00 |
| **4.1.2.** | **xırdabuynuzlu heyvanlar və donuzlar** | | |
| 1. | ümumi kliniki baxış, lazım olduqda termometriya | 1 baş | 3,00 |
| 2. | tənəffüs və həzm orqanlarının müayinəsi | 1 baş | 2,00 |
| 3. | nəbzin və ürək döyüntüsünün ölçülməsi | 1 baş | 1,00 |
| 4. | ön və arxa ətrafların, dırnaq tacının, dırnaqarası nahiyənin müayinəsi | 1 baş | 3,00 |
| 5. | laborator müayinələr üçün qan və digər nümunələrin götürülməsi (çatdırılması və laboratoriya müayinəsi xərci nəzərə alınmadan) | 1 baş | 7,00 |
| **4.1.3.** | **ev quşları** | | |
| 1. | ümumi kliniki baxış | 10 baş | 2,00 |
| 2. | nəbzin və ürək döyüntüsünün ölçülməsi | 10 baş | 2,00 |
| 3. | laborator müayinələr üçün qan və digər nümunələrin götürülməsi (çatdırılması və laboratoriya müayinəsi xərci nəzərə alınmadan) | 10 baş | 7,00 |
| **4.1.4.** | **bir arı ailəsi, dekorativ quş, ayrı-ayrı növ laboratoriya heyvanları və balıq partiyası** | | |
| 1. | arı ailəsi üzrə ümumi kliniki baxış | 1 ailə | 2,00 |
| 2. | dekorativ quş üzrə ümumi kliniki baxış | 1 baş | 5,00 |
| 3. | balıq partiyası üzrə ümumi kliniki baxış | 1 baxış** | 1,00 |
| 4. | arı ailəsi üzrə laborator müayinə üçün nümunələrin götürülməsi (çatdırılması və laboratoriya müayinəsi xərci nəzərə alınmadan) | 1 ailə | 5,00 |
| 5. | dekorativ quş üzrə laborator müayinə üçün nümunələrin götürülməsi (çatdırılması və laboratoriya müayinəsi xərci nəzərə alınmadan) | 1 baş | 5,00 |
| 6. | balıq partiyası üzrə laborator müayinə üçün nümunələrin götürülməsi (çatdırılması və laboratoriya müayinəsi xərci nəzərə alınmadan) | 1 nümunə*** | 5,00 |
| **4.1.5.** | **vəhşi heyvanlar, sirk və zoopark heyvanları** | | |
| 1. | ümumi kliniki baxış, lazım olduqda termometriya (narkoz vasitəsinin qiyməti nəzərə alınmadan) | 1 baş | 20,00 |
| 2. | tənəffüs və həzm orqanlarının müayinəsi | 1 baş | 5,00 |
| 3. | nəbzin və ürək döyüntüsünün ölçülməsi | 1 baş | 3,00 |

| | | | |
|---|---|---|---|
| 4. | ön və arxa ətrafların, dırnaq tacının, dırnaqarası nahiyənin müayinəsi | 1 baş | 10,00 |
| 5. | laborator müayinələr üçün qan və digər nümunələrin götürülməsi (çatdırılması və laboratoriya müayinəsi xərci nəzərə alınmadan) | 1 baş | 10,00 |
| **4.2.** | **Yoluxucu xəstəliklərin siyahısına daxil edilmiş xüsusi təhlükəli heyvan xəstəlikləri istisna olmaqla, digər xəstəliklərin diaqnostikası (müayinəsi)** | | |
| **4.2.1.** | **heyvan xəstəliklərinin klinik (mikroskopik) laboratoriya diaqnostikası (nümunələrin götürülməsi və laboratoriyaya çatdırılması nəzərə alınmadan)** | | |
| 1. | qanın ümumi analizi | 1 nümunə | 10,00 |
| 2. | sidiyin ümumi analizi | 1 nümunə | 10,00 |
| 3. | kalın ümumi analizi | 1 nümunə | 10,00 |
| 4. | sperma və embrionların kompleks diaqnostik müayinəsi | 1 nümunə | 45,00 |
| **4.2.2.** | **heyvan xəstəliklərinin biokimyəvi və hormonal laboratoriya diaqnostikası (nümunələrin götürülməsi və laboratoriyaya çatdırılması nəzərə alınmadan)** | | |
| 1. | biokimyəvi müayinələr (hər müayinə üçün) | 1 nümunə | 5,00 |
| **4.2.3.** | **heyvan xəstəliklərinin bakterioloji və virusoloji laboratoriya diaqnostikası (nümunələrin götürülməsi və laboratoriyaya çatdırılması nəzərə alınmadan)** | | |
| 1. | molekulyar-genetik üsulla (Polimeraz Zəncirvari Reaksiya - PZR) müxtəlif növ heyvan xəstəliklərinin törədicilərinin (diaqnostik nümunələrdə, spermada, embrionda və s.) təyini | 1 nümunə | 130,00 |
| 2. | immunoferment analizi (ELİSA) vasitəsilə müxtəlif növ heyvan xəstəliklərinin törədicilərinin (diaqnostik nümunələrdə, spermada, embrionda və s.) təyini | 1 nümunə | 30,00 |
| 3. | heyvanlardan götürülmüş diaqnostik materialların və yemlərin bakterioloji müayinəsi | 1 nümunə | 40,00 |
| 4. | gön və dəri xammalının qarayara xəstəliyinə qarşı presipitasiya reaksiyası ilə müayinəsi | 1 nümunə | 0,10 |
| 5. | bakterioloji müayinə, xəstəlik törədicisinin izolyasiyası və antibiotiklərə həssaslığının təyini | 1 nümunə | 25,00 |
| 6. | seroloji müayinələr | 1 nümunə | 15,00 |
| **4.2.4.** | **heyvan xəstəliklərinin parazitoloji laboratoriya diaqnostikası (nümunələrin götürülməsi və laboratoriyaya çatdırılması nəzərə alınmadan)** | | |
| 1. | parazitoloji xəstəliklərə görə diaqnostik müayinə | 1 nümunə | 24,00 |
| 2. | kalın helmintlərə görə müayinəsi | 1 nümunə | 15,00 |
| 3. | qanın helmintlərə görə müayinəsi | 1 nümunə | 15,00 |
| **4.2.5.** | **heyvan xəstəliklərinin toksikoloji laboratoriya diaqnostikası (nümunələrin götürülməsi və laboratoriyaya çatdırılması nəzərə alınmadan)** | | |
| 1. | patoloji materialın və yemlərin ümumi toksikoloji analizi | 1 nümunə | 48,00 |
| **4.2.6.** | **heyvan xəstəliklərinin histoloji laboratoriya diaqnostikası (nümunələrin götürülməsi və laboratoriyaya çatdırılması nəzərə alınmadan)** | | |

| | | | |
|---|---|---|---|
| 1. | orqan və toxumaların histoloji müayinəsi | 1 nümunə | 40,00 |
| **4.2.7.** | **heyvan xəstəliklərinin şüa-səs diaqnostikası** | | |
| 1. | qarın boşluğu orqanlarının ultrasəs müayinəsi (USM) | 1 baş | 17,00 |
| 2. | rentgenodiaqnostika | 1 baş | 15,00 |
| 3. | elektrokardioqrafiya (EKQ) | 1 baş | 25,00 |
| **4.3.** | **Heyvanların müalicəsi** | | |
| **4.3.1.** | **iribuynuzlu və təkdırnaqlı heyvanlar** | | |
| 1. | heyvanın fiksasiyası | 1 baş | 2,00 |
| 2. | xəstəliyin kliniki əlamətinə görə qoyulan ilkin diaqnoza uyğun müalicə kursunun müəyyən edilməsi | 1 baş | 6,00 |
| **4.3.2.** | **dərman vasitələrinin tətbiqi (dərman vasitəsinin qiyməti nəzərə alınmadan)** | | |
| 1. | əzələ və ya dərialtı inyeksiya | 1 baş | 2,00 |
| 2. | venadaxili inyeksiya | 1 baş | 5,00 |
| **4.3.3** | **xırdabuynuzlu heyvanlar və donuzlar** | | |
| 1. | xırdabuynuzlu heyvanların fiksasiyası | 1 baş | 1,00 |
| 2. | donuzların fiksasiyası | 1 baş | 2,00 |
| 3. | xəstəliyin kliniki əlamətinə görə qoyulan ilkin diaqnoza uyğun müalicə kursunun təyin edilməsi | 1 baş | 6,00 |
| **4.3.4.** | **xırdabuynuzlu heyvanlar üzrə dərman vasitələrinin tətbiqi (dərman vasitəsinin qiyməti nəzərə alınmadan)** | | |
| 1. | əzələdaxili və ya dərialtı inyeksiya | 1 baş | 1,00 |
| 2. | venadaxili inyeksiya | 1 baş | 2,00 |
| **4.3.5.** | **donuzlara dərman vasitələrinin tətbiqi (dərman vasitəsinin qiyməti nəzərə alınmadan)** | | |
| 1. | əzələ və ya dərialtı inyeksiya | 1 baş | 1,00 |
| 2. | venadaxili inyeksiya | 1 baş | 3,00 |
| **4.3.6** | **vəhşi heyvanlar, sirk və zoopark heyvanları** | | |
| 1. | heyvanın fiksasiyası (narkoz vasitəsinin qiyməti nəzərə alınmadan) | 1 baş | 10,00 |
| 2. | xəstəliyin kliniki əlamətinə görə qoyulan ilkin diaqnoza uyğun müalicə kursunun müəyyən edilməsi | 1 baş | 6,00 |
| **4.3.7.** | **dərman vasitələrinin tətbiqi (dərman vasitəsinin qiyməti nəzərə alınmadan)** | | |
| 1. | əzələ və ya dərialtı inyeksiya | 1 baş | 5,00 |
| 2. | venadaxili inyeksiya | 1 baş | 10,00 |
| **4.3.8.** | **ev quşları üzrə** | | |
| 1. | quşun fiksasiyası və müayinəyə hazırlanması | 10 baş | 1,00 |
| 2. | xəstəliyin kliniki əlamətlərinə görə qoyulan ilkin diaqnoza uyğun müalicə kursunun müəyyən edilməsi | 10 baş | 0,50 |
| **4.3.9.** | **dərman vasitələrinin tətbiqi (dərman vasitəsinin qiyməti nəzərə alınmadan)** | | |
| 1. | içirilmə, əzələdaxili inyeksiya və inhalyasiya | 10 baş | 0,80 |
| **4.4.** | **Yoluxmayan xəstəliklərin müalicəsi və ilkin baytarlıq yardımı (dərman vasitələrinin qiyməti nəzərə alınmadan)** | | |
| **4.4.1.** | **həzm və tənəffüs, sidik-cinsiyyət orqanlarının, ürək-damar və limfa sistemlərinin, qan-parazitar xəstəliklərinin, helmintozların, travmaların və zəhərlənmələrin müalicəsi** | | |
| 1. | iribuynuzlu və təkdırnaqlı heyvanlar | 1 baş | 25,00 |

| | | | |
|---|---|---|---|
| 2. | xırdabuynuzlu heyvanlar və donuzlar | 1 baş | 20,00 |
| 3. | ev quşları, dekorativ quşlar və arı ailəsi | 10 baş (quşlar üzrə)<br>1 ailə (arılar üzrə) | 10,00 |
| 4. | vəhşi, zoopark və sirk heyvanları | 1 baş | 40,00 |
| **4.4.2.** | **ginekoloji cərrahi əməliyyatlar** | | |
| 1. | çətin doğuş zamanı baytarlıq yardımının göstərilməsi | 1 baş | 50,00 |
| 2. | balalığın amputasiyası | 1 baş | 100,00 |
| **4.4.3.** | **ümumi cərrahi əməliyyatlar (keysəriyyə, axtalanma və s.) habelə bu əməliyyatlar üzrə yaraların yuyulması, tikişin qoyulması və sökülməsi, gips sarğısı və təmizləyici imalə** | | |
| 1. | iri heyvanlar (atlar, qaramal, dəvələr, vəhşi heyvanlar, həmçinin sirk və zoopark heyvanları) | 1 başda 1 əməliyyat | 100,00 |
| 2. | xırdabuynuzlu heyvanlar və donuzlar | 1 başda 1 əməliyyat | 30,00 |
| **4.4.4.** | **kosmetik əməliyyatlar (qulaq seyvanı, quyruq və artıq barmaqda)** | | |
| 1. | qeyri-məhsuldar ev heyvan-larında (itlər, pişiklər və s.) | 1 baş | 50,00 |
| **4.4.5.** | **uroloji xəstəliklərin kliniki baxışı, müayinəsi və müalicəsi** | | |
| 1. | həkimin qəbulu və məsləhəti, heyvanın kliniki baxışı | 1 baş | 20,00 |
| 2. | heyvanın kliniki müayinəsi (böyrəklərin və sidik kisəsinin USM-i, rentgenoqrafiyası, sidiyin bakterioloji müayinəsi, sidiyin ekspres-analizi, sidiyin ümumi analizi, çöküntünün mikrosko-piyası (hər biri ayrılıqda) | 1 baş | 20,00 |
| 3. | pişiklərin kateterizasiyası | 1 baş | 15,00 |
| 4. | sidikliyin yuyulması | 1 baş | 20,00 |
| 5. | sidik kisəsinin masajı | 1 baş | 3,00 |
| 6. | kateterin uretrada müvəqqəti tikişlə saxlanılması | 1 baş | 7,00 |
| 7. | uretral tutqunluğun aradan qaldırılması üçün pişiklərin kateterizasiyası | 1 baş | 20,00 |
| 8. | erkək pişiklərin perineal uretrostomiyası | 1 baş | 150,00 |
| 9. | sistotomiya | 1 baş | 150,00 |
| 10. | erkək pişiklərdə sistotomiya və uretromiya | 1 baş | 300,00 |
| 11. | erkək pişiklərin axtalanması | 1 baş | 50,00 |
| 12. | erkək pişiklərin axtalanması (kriptorx) | 1 baş | 75,00 |
| 13. | erkək itlərin axtalanması | 1 baş | 150,00 |
| 14. | erkək itlərin axtalanması (kriptorx) | 1 baş | 200,00 |
| **4.4.6.** | **kardioloji xəstəliklərin kliniki baxışı, müayinəsi və müalicəsi (bütün növ heyvanlarda)** | | |
| 1. | həkimin qəbulu və məsləhəti, heyvanın kliniki baxışı | 1 baş | 20,00 |
| 2. | ürəyin ultrasəs müayinəsi (USM) və elektrokardioqramması (EKQ) (hər biri ayrılıqda) | 1 baş | 30,00 |

| | | | |
|---|---|---|---|
| **4.4.7.** | **nevroloji xəstəliklərin kliniki baxışı, müayinəsi və müalicəsi** | | |
| 1. | miyeloqrafiya | 1 baş | 50,00 |
| 2. | laminektomiya (bütün növ heyvanlarda) | 1 baş | 150,00 |
| 3. | onurğa sınığı zamanı cərrahi müalicə | 1 baş | 150,00 |
| **4.4.8.** | **qastroenteroloji xəstəliklərin kliniki baxışı, müayinəsi və müalicəsi** | | |
| 1. | qastrotomiya, enterotomiya | 1 baş | 250,00 |
| 2. | meqakolon zamanı bağırsağın rezeksiyası | 1 baş | 250,00 |
| 3. | cərrahiyyə yolu ilə bağırsaq dolaşmasının müalicəsi | 1 baş | 400,00 |
| 4. | dalağın cərrahiyyə yolu ilə götürülməsi | 1 baş | 300,00 |
| 5. | göbəyin/xayanın herniotomiyası | 1 baş | 200,00 |
| 6. | diaqnostik laparotomiya | 1 baş | 100,00 |
| **4.4.9.** | **dermatoloji xəstəliklərin kliniki baxışı, müayinəsi və müalicəsi** | | |
| 1. | həkimin qəbulu və məsləhəti, heyvanın kliniki baxışı | 1 baş | 20,00 |
| 2. | "Vud" lampası ilə müayinə | 1 baş | 10,00 |
| 3. | dermatomikozların ekspres-test müayinəsi | 1 baş | 20,00 |
| 4. | mikoloji müayinə | 1 baş | 30,00 |
| 5. | sitoloji yaxma | 1 baş | 10,00 |
| 6. | dəri qaşıntısının mikroskopiyası | 1 baş | 10,00 |
| 7. | quş lələyinin müayinəsi | 1 baş | 10,00 |
| 8. | birələrin testi | 1 baş | 5,00 |
| 9. | otoskopiya | 1 baş | 5,00 |
| 10. | yapışqan lentlə müayinə | 1 baş | 10,00 |
| **4.4.10.** | **stomatoloji xəstəliklərin kliniki baxışı, müayinəsi və müalicəsi** | | |
| 1. | həkimin qəbulu və məsləhəti, heyvanın kliniki baxışı | 1 baş | 20,00 |
| 2. | ultrasəs skellerlə dişlərin təmizlənməsi | 1 baş | 40,00 |
| 3. | dişlərin mexaniki təmizlənməsi | 1 baş | 5,00 |
| 4. | dişlərin ftorlanması | 1 baş | 50,00 |
| 5. | süd köpək dişlərin, süd kəsici dişlərin və ya kəsici dişlərin çıxarılması (hər biri ayrılıqda) | 1 baş | 7,00 |
| 6. | daimi köpək dişlərinin çıxarılması | 1 baş | 30,00 |
| 7. | böyük və kiçik azı dişlərinin çıxarılması | 1 baş | 15,00 |
| 8. | dişlər retinə olunduğu zaman damağın kəsilməsi | 1 baş | 75,00 |
| **4.4.11.** | **oftalmoloji xəstəliklərin kliniki baxışı, müayinəsi və müalicəsi** | | |
| 1. | həkimin qəbulu və məsləhəti, heyvanın kliniki baxışı | 1 baş | 20,00 |
| 2. | şirmer testi, oftalmoskopiya (hər biri ayrılıqda) | 1 baş | 10,00 |
| 3. | distixiazın elektrokoaqulyasiyası | 1 baş | 25,00 |
| 4. | burun-gözyaşı kanalının yuyulması | 1 baş | 15,00 |
| 5. | elektrokoaqulyasiya ilə göz qapağı papillomasının götürülməsi | 1 baş | 15,00 |
| 6. | göz almasının yerinə salınması | 1 baş | 100,00 |
| 7. | göz qapağı dolaşmasının bleferoplastikası | 1 baş | 100,00 |

| | | | |
|---|---|---|---|
| 8. | 3-cü göz qapağının adeno-malarının qorunan və ya kəsilmə bleferoplastikası | 1 baş | 150,00 |
| 9. | cərrahiyə üsulu ilə göz qişasının müalicəsi/tikilməsi | 1 baş | 200,00 |
| 10. | göz almasının ekstripasiyası | 1 baş | 150,00 |
| 11. | göz qapağında şişlərin ekstripasiyası | 1 baş | 125,00 |
| **4.4.12.** | **ortopedik xəstəliklərin kliniki baxışı, müayinəsi və müalicəsi** | | |
| 1. | pişik və itin çanaq sümüyünün osteosintezi | 1 baş | 200,00 |
| 2. | pişik və karlik (dekorativ) cins itlərin sümüküstü osteosintezi | 1 baş | 250,00 |
| 3. | intramedulyar osteosintez | 1 baş | 200,00 |
| 4. | pişiklərdə və itlərdə ikili osteosintez | 1 baş | 400,00 |
| **4.4.13.** | **cərrahiyyə yolu ilə çanaq-bud oynağının yerinə salınması** | | |
| 1. | pişiklərdə | 1 baş | 200,00 |
| 2. | itlərdə | 1 baş | 250,00 |
| 4.4.14. | ənənəvi üsulla çanaq-bud oynağının yerinə salınması | 1 baş | 75,00 |
| **4.4.15.** | **bud sümüyünün baş hissəsinin rezeksiyası** | | |
| 1. | pişiklərdə | 1 baş | 200,00 |
| 2. | itlərdə | 1 baş | 250,00 |
| 4.4.16. | çıxmış dirsək/çiyin-kürək oynaqlarının cərrahiyyə yolu ilə yerinə salınması | 1 baş | 250,00 |
| 4.4.17. | pişiklərdə çənə oynaqlarının yerinə salınması | 1 baş | 40,00 |
| 4.4.18. | artroz zamanı və vaxtı keçmiş sınığın, çənə oynağının rezeksiyası | 1 baş | 250,00 |
| 1. | barmağın amputasiyası | 1 baş | 100,00 |
| 2. | ayağın amputasiyası | 1 baş | 250,00 |
| 3. | yaranın müalicəsi | 1 baş | 10,00 |
| 4. | yaraya tikiş qoymaqla müalicə | 1 baş | 20,00 |
| 5. | geniş cırılmış çoxsaylı yaraların müalicəsi | 1 baş | 120,00 |
| 6. | cərrahiyyə yolu ilə zədələnmiş vətərin müalicəsi | 1 baş | 200,00 |
| 7. | absesin cərrahiyyə yolu ilə müalicəsi | 1 baş | 20,00 |
| 8. | fleqmonanın cərrahiyyə yolu ilə müalicəsi | 1 baş | 25,00 |
| 9. | sarğı | 1 baş | 5,00 |
| 10. | tikişlərin sökülməsi | 1 baş | 5,00 |
| 11. | drenajın qoyulması | 1 baş | 5,00 |
| **4.4.19.** | **onkoloji xəstəliklərin kliniki baxışı, müayinəsi və müalicəsi** | | |
| 1. | pişiklərdə lateral mastektamiya | 1 baş | 200,00 |
| 2. | itlərdə lateral mastektamiya | 1 baş | 250,00 |
| 3. | pişiklərdə kranial/kaudal regionar mastektomiya | 1 baş | 200,00 |
| 4. | itlərdə kranial/kaudal regionar mastektomiya | 1 baş | 250,00 |
| 5. | kaudal bilateral mastektamiya | 1 baş | 30,00 |
| **4.4.20.** | **dərialtı və dəriüstü şişlərin götürülməsi** | | |
| 1. | kiçik və ortaboy (1 ədəd) | 1 baş | 75,00 |
| 2. | böyük, çoxsaylı (2 ədəd və daha çox) | 1 baş | 200,00 |
| 3. | papillomaların elektrokoaqulyasiyası | 1 baş | 15,00 |
| 4. | böyük şişlərin götürülməsi və dərinin plastik əməliyyatı | 1 baş | 250,00 |
| 5. | aşağı çənənin rezeksiyası | 1 baş | 250,00 |

| | | | |
|---|---|---|---|
| 6. | toxumaların histoloji müayinəsi | 1 baş | 40,00 |
| 7. | kimyaterapiya | 1 baş | 25,00 |
| **4.4.21.** | **ginekoloji xəstəliklərin kliniki baxışı, müayinəsi və müalicəsi** | | |
| 1. | həkimin qəbulu və məsləhəti, heyvanın kliniki baxışı | 1 baş | 20,00 |
| 2. | reproduktiv orqanların USM-i | 1 baş | 20,00 |
| 3. | boğazlığın USM-lə təyini | 1 baş | 25,00 |
| 4. | doğuşa yardım | 1 baş | 15,00 |
| 5. | balanın reanimasiyası | 1 baş | 5,00 |
| 6. | vaginanın manual müayinəsi, balalıq yolunun işlənməsi (hər biri ayrılıqda) | 1 baş | 5,00 |
| 7. | mayalanma müddətinin təyini üçün yaxma | 1 baş | 10,00 |
| 8. | dişi pişiklərin sterilləşdirilməsi | 1 baş | 80,00 |
| 9. | dişi itlərin sterilləşdirilməsi | 1 baş | 250,00 |
| 10. | itlərin keysəriyyə əməliyyatı | 1 baş | 250,00 |
| 11. | pişiklərin keysəriyyə əməliyyatı | 1 baş | 100,00 |
| 12. | Pişiklərin və itlərin balalığının patologiyası (piometra, hidro-metra, gematometra, mukometra, onkoloji şişlər) zamanı ovarihisterektomiya | 1 baş | 250,00 |
| **4.4.22.** | **heyvanların stasionarda saxlanılması** | | |
| 1. | pişiklər | 1 baş (1 gün) | 20,00 |
| 2. | itlər | 1 baş (1 gün) | 25,00 |
| **4.4.23.** | **qeyri-məhsuldar ev heyvanlarının (it, pişik və s.) peyvəndlənməsi** | | |
| 1. | peyvənd vasitəsinin tətbiqi (peyvəndin haqqı daxil olmaqla) | 1 baş | 25,00-35,00 (peyvənd vasitəsindən asılı olaraq) |
| **4.5.** | **Xüsusi təhlükəli heyvan xəstəlikləri istisna olmaqla, digər xəstəliklər nəticəsində ölmüş heyvanların cəsədlərinin zərərsizləşdirilməsi zamanı baytarlıq-sanitariya tədbirləri** | | |
| **4.5.1.** | **iribuynuzlu və təkdırnaqlı heyvanlar** | | |
| 1. | cəsəddə patoloji yarmanın aparılması | 1 baş | 20,00 |
| 2. | laborator müayinələr üçün patoloji materialın götürülməsi, yarma protokolunun tərtibi (çatdırılması və laboratoriya müayinəsi xərci nəzərə alınmadan) | 1 baş | 5,00 |
| 3. | cəsədin zərərsizləşdirilməsi zamanı dezinfeksiya işlərinin aparılması | 1 baş | 5,00 |
| **4.5.2.** | **xırdabuynuzlu heyvanlar və donuzlar** | | |
| 1. | cəsəddə patoloji yarmanın aparılması | 1 baş | 10,00 |
| 2. | laborator müayinələr üçün patoloji materialın götürülməsi, yarma protokolunun tərtibi (çatdırılması və laboratoriya müayinəsi xərci nəzərə alınmadan) | 1 baş | 5,00 |
| 3. | cəsədin zərərsizləşdirilməsi zamanı dezinfeksiya işlərinin aparılması | 1 baş | 5,00 |
| **4.5.3.** | **ev quşları** | | |

| | | | |
|---|---|---|---|
| 1. | cəsəddə patoloji yarmanın aparılması | 10 baş | 2,00 |
| 2. | laborator müayinələr üçün patoloji materialın götürülməsi, yarma protokolunun tərtibi (çatdırılması və laboratoriya müayinəsi xərci nəzərə alınmadan) | 10 baş | 1,00 |
| 3. | cəsədin zərərsizləşdirilməsi zamanı dezinfeksiya işlərinin aparılması | 10 baş | 1,00 |
| **4.5.4.** | **vəhşi heyvanlar, sirk və zoopark heyvanları** | | |
| 1. | cəsəddə patoloji yarmanın aparılması | 1 baş | 30,00 |
| 2. | laborator müayinələr üçün patoloji materialın götürülməsi, yarma protokolunun tərtibi (çatdırılması və laboratoriya müayinəsi xərci nəzərə alınmadan) | 1 baş | 7,00 |
| 3. | cəsədin zərərsizləşdirilməsi zamanı dezinfeksiya işlərinin aparılması | 1 baş | 10,00 |
| **5.** | **Büdcədən maliyyələşən xüsusi təhlükəli heyvan xəstəlikləri daxil olmaqla, heyvanların peyvəndlənməsi (heyvanın fiksasiyası və peyvəndləmə vasitəsinin qiyməti nəzərə alınmadan)** | | |
| 5.1. | təkdırnaqlı heyvanlar | 1 baş | 0,80 |
| 5.2. | qaramal, dəvələr | 1 baş | 0,50 |
| 5.3. | qeyri-məhsuldar ev heyvanları (itlər, pişiklər və s.) | 1 baş | 0,40 |
| 5.4. | qoyunlar, keçilər və donuzlar | 1 baş | 0,30 |
| 5.5. | arı ailələri | 1 ailə | 0,20 |
| 5.6. | quşlar | 10 baş | 0,50 |

* Kliniki müayinə tədbirlərinə anamnez məlumatların toplanılması, heyvana baxışın keçirilməsi (görünən selikli qişalar, qulaq seyvanı, burun aynası, dəri örtüyü, süd və limfa vəzləri, dırnaq tacı, dırnaqarası nahiyələr və s.) palpasiya, termometriya və s. daxildir.

** 1 baxış - 10 kq.

*** 1 nümunə - laborator müayinə üçün nümunələr Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 4 dekabr tarixli 255 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət baytarlıq nəzarəti obyektlərinin baytarlıq (baytarlıq-sanitariya) ekspertizasının aparılması Qaydaları"na uyğun olaraq götürülür.

**** Həssas heyvan - patogen xəstəlik törədicisi tərəfindən təbii və ya eksperimental yoluxmaya məruz qalması ilə infeksiyanın (invaziyanın) müşahidə olunduğu heyvan növü.

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 13 mart 2024-cü il tarixli **152** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 mart 2024-cü il, "Xalq" qəzeti, 20 mart 2024-cü il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 3, maddə 329)**

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

-

[1] 13 mart 2024-cü il tarixli **152** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 mart 2024-cü il, "Xalq" qəzeti, 20 mart 2024-cü il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 3, maddə 329 )** ilə 2-ci hissə ləğv edilmişdir.